Partnership for Good Governance
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

COUNCIL OF EUROPE

EUROPEAN UNION CONSEIL DE L'EUROPE

**AŞ/Aİ-nin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramı**
**"Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılması" Layihəsi**

**Layihənin icmalı**

| | |
|---|---|
| Layihənin adı | **Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılması (PGG-AZ)** |
| Layihənin ərazisi | Azərbaycan |
| Büdcə | 1,000,000 Avro |
| Maliyyələşmə | Avropa İttifaqı 90%; Avropa Şurası 10% |
| İcra | İqtisadi Cinayətlər və Əməkdaşlıq Bölməsi, Cinayətlə Mübarizə Departamenti, İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktoratlıq, Avropa Şurası |
| Müddət | 36 ay (1 yanvar 2015-ci idən etibarən) |

## GİRİŞ

"Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılması" Layihəsi AŞ/Aİ Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) çərçivəsində "Korrupsiya ilə mübarizə və yaxşı idarəçiliyin gücləndirilməsi/Çirkli pulların yuyulması ilə mübarizə" Proqramının dörd milli komponentindən biridir və korrupsiya ilə mübarizə sahəsində Azərbaycanın ehtiyaclarına cavab verəcək şəkildə hazırlanmışdır. Layihə Azərbaycanın korrupsiyanın qarşısının alınması və təqibi ilə məşğul olan qurumlarına daxili imkanlarını artırmaqda, həmçinin bu sahədə gələcək prioritetləri müəyyən etməkdə Azərbaycan hökumətinə dəstək göstərmişdir.

## EHTİYACLAR, VƏZİFƏLƏR, GÖZLƏNİLƏN NƏTİCƏLƏR VƏ FƏALİYYƏTLƏR

PGG-AZ Layihəsinin **ümumi məqsədi** korrupsiyanın qarşısının alınması və onunla mübarizəyə yönəlik institusional islahatların icrası vasitəsilə demokratiya və qanunun aliliyinə dəstək olmuşdur. Bu məqsədə dövlət sektorunda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində institusional bacarıqların gücləndirilməsi yolu ilə nail olunmuşdur. Layihə fəaliyyətləri aşağıdakı üç sahəni əhatə etmişdir:

- **Preventiv**: korrupsiyanın qarşısının alınması təşəbbüsləri vasitəsilə başlıca dövlət xidməti qurumlarının bacarıqlarının artırılması;
- **Hüquq-mühafizə:** hüquq-mühafizə orqanlarının korrupsiyanın və iqtisadi cinayətin digər növlərinin istintaqı və ittihamı üzrə ixtisaslarının artırılması;

- **Strateji tədbirlər:** gələcək prioritet sahələrin və icra olunmalı tədbirlərin müəyyən edilməsinə dəstək göstərilməsi.

Milli tərəfdaşlarla razılaşdırılmış fəaliyyətlər vasitəsilə Layihə çərçivəsində aşağıdakı nəticələrə nail olunmuşdur:

- **Gözlənilən Nəticə 1:** Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın və Dövlət İmtahan Mərkəzinin təlim imkanlarının təkmilləşməsi;

- **Gözlənilən Nəticə 2**: Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin hüquq-mühafizə bacarıqlarının möhkəmlənməsi;

- **Gözlənilən Nəticə 3**: Korrupsiyaya qarşı Mübarizə üzrə yeni Milli Fəaliyyət Planının hazırlanmasına dəstək;

- **Gözlənilən Nəticə 4:** Korrupsiyaya qarşı mübarizə üzrə təlimin dövlət xidməti və təhsil sektoruna daxil edilməsi.

Hər bir sahə üzrə fəaliyyətlər qiymətləndirmələr, mütəxəssis məsləhətinin təmin edilməsi, seminarlar, təlimlər və dəyirmi masalardan ibarət olmuşdur. Fəaliyyətlərin nəticələri texniki sənədlər, kitabçalar və digər **yazılı formada sənədləşdirilərək** Layihənin internet səhifəsində yerləşdirilmişdir.

## TƏRƏFDAŞLAR/ BENEFİSİARLAR

Layihənin əsas tərəfdaşı: Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya.

Benefisiarlar:
- Dövlət İmtahan Mərkəzi;
- Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi;
- Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi/ASAN;
- Maliyyə Monitorinqi Xidməti;
- Azərbaycan Respublikasının Auditorlar Palatası;
- Ədliyyə Akademiyası;
- Təhsil Nazirliyi;
- Azərbaycan universitetləri və tələbələri;
- Vətəndaş cəmiyyəti institutları.

## İCRA MEXANİZMİ

Bu mövzu üzrə və Şərq Tərəfdaşlığı (ŞT) regionunda başlıca qurum olaraq, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktoratlığı, Məlumat Cəmiyyəti və Cinayətə qarşı Fəaliyyət Departamenti bu Layihə çərçivəsində fəalyyətlərin icrasına məsul olmuşdur. Korrupsiya ilə mübarizə və iqtisadi cinayətlər üzrə beynəlxalq və ŞT ölkələrindən yerli ekspertlər uzun və qısa müddətə Layihəyə cəld etmişdir.

**ƏLAQƏ ÜÇÜN MƏLUMAT**

İqtisadi Cinayətlər və Əməkdaşlıq Bölməsi,
Məlumat Cəmiyyəti və Cinayətlə Mübarizə Departamenti
Avropa Şurası
F-67075 Strasburq Cedex (Fransa)

Avropa Şurasının Bakıdakı Ofisi
Marine Plaza
Üzeyir Hacıbəyli küçəsi 62
1010 Bakı, Azərbaycan

I Şöbənin Rəhbəri
Mustafa FERATİ
Tel: +33 (0)3 90 21 45 50
Faks: +33 (0)3 88 41 39 55
E-poçt: Mustafa.FERATI [at] coe.int

Layihə Rəhbəri
Teodora LUKOVİÇ
Tel: +994 12 599 05 27
Faks: +994 12 599 05 30
E-poçt: Teodora.LUKOVIC [at] coe.int

Proqram Koordinatoru
Zəhra ƏHMƏDOVA
Phone: +33 (0)3 88 41 2844
E-poçt: Zahra.AHMADOVA [at] coe.int

Layihə üzrə Əlaqələndirici
Firuzə CƏFƏROVA
Tel: +994 12 599 05 27
E-poçt: Firuza.JAFAROVA [at] coe.int

Layihənin internet səhifəsi: https://www.coe.int/en/web/corruption/projects/pgg-azerbaijan